QANUN № 01 (375), 2026, s. 171-177

**Hüseynova Aytəkin Mahir qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının "Ekologiya hüququ" ixtisaslaşması üzrə II kurs magistrantı
E-mail: aytkinh1@gmail.com

**UOT 349.6**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4075**

# EKOLOGİYADAN İSTİFADƏ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ANLAYIŞI

***Açar sözlər:*** *anlayış, ekologiyadan istifadə, ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan istifadə, dövlət tənzimlənməsi.*

***Ключевые слова:*** *понятие, использование экологии, охрана окружающей среды, использование природных ресурсов, государственное регулирование.*

***Keywords:*** *concept, use of ecology, environmental protection, utilization of natural resources, state regulation.*

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi müasir ekologiya hüququnun ümumi hissəsinə daxil olan institutlardan biridir. Ekologiyadan istifadənin və ətraf mühitin qorunması üzrə dövlət tənzimlənməsi dövlət idarəetmə sisteminin əsas sahələrindən biri kimi, ölkənin ekoloji siyasətində xüsusi əhəmiyyət kəsb edir. Bu tənzimlənmə forması dövlət hakimiyyətinin iradəsinə əsaslanaraq, təbii resursların effektiv istifadəsini və bərpasını, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsini təmin etməyə yönəlmişdir.

Bu məqalənin məqsədi ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi anlayışını tədqiq etmək, mövcud yanaşmaları təhlil etmək və anlayışa dair sistemli baxış formalaşdırmaqdır.

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi anlayışı tədqiq edilərkən onun tərkib hissələrinə ayrılması və həmin hissələrin hər birinin ayrılıqda təhlil edilərək anlayışın ümumi mənasının dərk edilməsi daha məqsədəuyğun olar. Bu məqsədlə "ekologiyadan istifadə", "ətraf mühitin mühafizəsi ", "dövlət tənzimlənməsi" anlayışlarının hər birinə ayrılıqda aydınlıq gətirilməlidir. Yalnız belə olduğu halda, anlayışın kompleks mahiyyəti izah edilə bilər.

Ekologiyadan istifadə hüququ bir neçə mənada başa düşülür: 1) ekologiya hüququnun institutu kimi, 2) ekologiya istifadəçilərinin hüquq və vəzifələrinin məcmusu kimi, 3) hüquq münasibəti kimi. Ekologiyadan istifadə hüququ ekologiya hüququnun bir institutu kimi ekologiya qanunvericiliyində təsbit olunan normaların məcmusudur, hansı ki, bu normalar həm dövlət orqanları, həm də ekologiyadan istifadəçilər üçün məcburi hüquqi qüvvəyə malikdir. İkinci mənada ekologiyadan istifadə hüququ obyektiv və subyektiv mənada başa düşülə bilər. Belə ki, obyektiv mənada ekologiyadan istifadə dedikdə, ekologiyadan istifadəçilərin hüquq və vəzifələrinin məcmusu, subyektiv mənada isə hüquq və vəzifələrin məzmunu nəzərdə tutulur.

Son olaraq, hüquq münasibəti kimi ekologiyadan istifadə hüququ ekologiyadan ekologiyadan istifadəçilərin obyektiv hüququ əsasında, subyektiv hüquqlarının reallaşdırılması qaydasını və bu hüquqların praktikada tətbiqini əhatə edir [8, s. 139-140].

Ekologiyadan istifadə anlayışından bəhs edilərkən təbiətdən istifadədən yan keçmək olmaz, çünki bu iki anlayış qarşılıqlı və bir-birlərini tamamlayan anlayışlardır. Ekologiyadan istifadə təbiətdən istifadədən daha geniş anlayış olub, özündə təbiətdən istifadə anlayışını da ehtiva edir. Lakin bu anlayışlar arasında müəyyən fərqlər də vardır. A. Əsədov, L.Axundzadə və Z.Quliyevaya görə, ekologiyadan istifadədə əsas məqsəd ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunmasıdır. Təbiətdən istifadədə isə iqtisadi mənafelər daha çox üstün tutulur, ekoloji qanunauyğunluqlara yetəri qədər önəm verilmir [8, s. 138].

A.B.Dolxanova görə, təbiətdən istifadə dedikdə, insanla təbii ehtiyatlar arasında formalaşan iqtisadi münasibətlər başa düşülür və bu anlayış insanın ətraf mühitin iqtisadi, ekoloji, mədəni və sağlamlaşdırıcı xüsusiyyətlərindən faydalanmasını nəzərdə tutur [7, s. 54].

R.Ş.Həsənova görə, təbiətdən istifadə təbii resurs potensialının istismarı və qorunması ilə bağlı bütün fəaliyyət formalarını əhatə edən kompleks bir prosesdir və bu proses təbii ehtiyatların hasilatı, emalı, bərpası, habelə ekoloji balansın və ətraf mühitin qorunmasını ehtiva edir [9, s. 25-26].

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanununun 1-ci maddəsinə görə, "təbiətdən istifadə – gələcək nəsillərin ehtiyacını nəzərə almaqla, cəmiyyətin sosial-iqtisadi tələblərini ödəmək məqsədilə ətraf mühitin ekoloji tarazlığının pozulmasına yol verilmədən təbii resurslardan səmərəli və qənaətlə istifadə edilməsidir" [1].

Təbiətdən istifadənin ümumi və xüsusi növləri vardır. Ümumi istifadə zamanı hər hansı dövlət orqanının icazəsi tələb edilmir, istifadə hüququ ödənişsiz həyata keçirilir. Xüsusi istifadə zamanı isə bunun tam əksi olaraq, müvafiq dövlət orqanından razılıq alınır və istifadə ödənişli olur. Təbiət obyektindən asılı olaraq isə təbiətdən istifadənin torpaq, yer təki, su, meşə, heyvanlar aləmi və atmosferdən istifadə kimi növləri mövcuddur.

Təbiət obyektlərinin ayrı-ayrı növlərindən istifadənin məqsədli təyinatına görə təbiətdən istifadənin bir sıra növləri fərqləndirilir. AR Torpaq Məcəlləsinin 9-cu maddəsinə görə, torpaqdan istifadənin məqsədli təyinatına görə bu növləri vardır: kənd təsərrüfatı təyinatlı, yaşayış məntəqələrinin torpaqları, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı, meşə fondu, su fondu, ehtiyat fondu və xüsusi qorunan ərazilərin torpaqları [5].

AR Su Məcəlləsinin 35-ci maddəsinə əsasən, sudan istifadənin içməli su və məişət təchizatı, nəqliyyat, müalicə, kurort və sağlamlaşdırma, istirahət və idman, sənaye, tikinti və energetika, kənd və meşə təsərrüfatı, hidroenergetika, balıqçılıq və akvakultura, ovçuluq, tullantı sularının axıdılması, yanğından mühafizə və digər bu kimi növləri mövcuddur [4].

AR Meşə Məcəlləsinin 48-ci maddəsində təsbit olunan meşə fondundan istifadə növləri bunlardır: oduncaq tədarükü, ikinci dərəcəli meşə ehtiyatları tədarükü, meşədən əlavə istifadə, elmi-tədqiqat məqsədləri üçün, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün, ovçuluq təsərrüfatı [2].

"Yerin təki haqqında" 13 fevral 1998-ci il tarixli AR Qanununun 7-ci maddəsinə görə yerin təkindən istifadənin geoloji və geoekoloji öyrənmə, faydalı qazıntıların çıxarılması, dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı, elmi, mədəni, estetik, müalicə-sağlamlıq əhəmiyyətlərinə malik xüsusi mühafizə edilən geoloji

obyektlərin yaradılması; mineraloji, paleontoloji və digər geoloji kolleksiya materiallarının toplanması, arxeoloji qazıntıların aparılması kimi növləri vardır [6].

AR Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş "Heyvanlar aləmindən ümumi və xüsusi istifadə Qaydaları"na əsasən, heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir. Heyvanlar aləmindən ümumi istifadəyə daxildir: heyvanlar aləmi obyektlərindən elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün istifadə edilməsi, vəhşi heyvanların həyat fəaliyyətinin faydalı xüsusiyyətlərindən istifadə edilməsi, vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi, balıq və digər su bioresurslarının idman və həvəskar ovu. Heyvanlar aləmindən xüsusi istifadəyə bunlar aid edilir: ovçuluq, balıqçılıq (balıq və digər su bioresurslarının idman və həvəskar ovu istisna olmaqla), vəhşi heyvanların qeyri-sərbəst və yarımsərbəst şəraitdə saxlanılması, çoxaldılması, kommersiya və digər məqsədlər üçün tutulması; heyvanlar aləmi obyektlərinin elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün tutulması [3].

Ətraf mühitin mühafizəsinə verilən anlayışlardan biri "Ətraf mühitin mühafizəsi haqqında" AR Qanununun 1-ci maddəsində öz əksini tapıb. Qanunun bu müddəasına görə, ətraf mühitin mühafizəsi ətraf mühitdə təbii şəkildə mövcud olan təbii sərvətlərin ilkin vəziyyətinə ziyan vurmadan, onların kəmiyyət və keyfiyyət baxımından dəyişdirilmədən qorunmasıdır [1].

Ətraf mühitin mühafizəsi sürətlə tükənən və bərpa edilməsi mümkün olmayan təbii ehtiyatların mühafizəsini və qorunmasını ehtiva edir [19, s. 315].

"Ətraf mühitin mühafizəsi haqqında" AR Qanununa görə, ətraf mühitin mühafizəsinin təbii resursların səmərəli istifadə və bərpası, təbiətdən istifadə və ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılması, ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq, bioloji müxtəlifliyin qorunmasının təmin edilməsi, dövlət nəzarəti, ətraf mühitə vurulan zərərin qarşısının alınması və s. kimi prinsipləri vardır [1].

Dövlət tənzimlənməsi anlayışı tədqiq edilərkən "Ətraf mühitin mühafizəsi haqqında" AR Qanununun "təbiətdən istifadənin dövlət tənzimlənməsi" adlanan 12-ci maddəsinə nəzər yetirilməlidir. Qanunun bu müddəasına görə, dövlət təbii ehtiyatlardan istifadəni, bərpanı və mühafizəni tənzim etmək məqsədi ilə dövlət proqramları qəbul edir, təbii ehtiyatların uçot, monitorinq və kadastrını aparır [1].

O.R.Sarkisov və Y.L.Lyubarskiyə görə, dövlət tənzimlənməsi ictimai idarəetmənin formalarından biridir və cəmiyyətin həyatının konkret sferasında dövlətin icra hakimiyyət orqanlarının fəaliyyətinin idarəetməsidir [17, s. 93].

A.N.Kramnik dövlət tənzimetməsini dövlət hakimiyyətinin vahid şəkildə həyata keçirilməsinə yönəldilən bir fəaliyyət olduğunu və onun əsasən qanunların icrasına yönəldiyini qeyd edir [15, s. 84].

Yuxarıda göstərilən elementlər, yəni "ekologiyadan istifadə", "təbiətdən istifadə", "ətraf mühitin mühafizəsi", "dövlət tənzimlənməsi" anlayışları "ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi" anlayışının strukturunu formalaşdırıb, onun mürəkkəb məzmununun açılmasına və vahid şəkildə başa düşülməsinə kömək edir. Bununla yanaşı, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsi anlayışının strukturunu və məzmununu tam dərk etmək üçün onun elmi ədəbiyyatlarda olan ümumi təriflərinə diqqət yetirmək lazımdır.

M.M.Brinçuka görə, təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sahəsində dövlət idarəçiliyi qanunvericiliyin təbii sərvətlərin səmərəli istifadəsi və idarəsi, ətraf mühitə zərərli təsirlərin qarşısının alınması ilə bağlı tələblərinin real-

laşdırılması yolu ilə insanların ekoloji hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir və bu ekologiya hüququnun müəyyən etdiyi hədəflərə nail olunmasını təmin edir [12, s. 149].

S.A.Balaşenkonun yanaşmasına əsasən, təbiətdən istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi sosial idarəetmənin tərkib hissəsidir və dövlət tərəfindən təbii ehtiyatlardan rasional istifadə və onların bərpası, ətraf mühitin qorunması, eləcə də bu zaman qanunun aliliyinin və vətəndaşların sağlam ətraf mühitdə yaşamaq konstitusion hüququnu təmin edən fəaliyyətdir [10, s. 54].

N.V.Storojev təbiətdən səmərəli istifadənin idarəsinin buna cavabdeh dövlət orqanları və təbiət istifadəçilərinin hüquq və vəzifələrini, habelə bu sahədə fəaliyyətin pozulmasına görə məsuliyyət tədbirlərini müəyyən və tətbiq etməklə bağlı olduğunu qeyd edir [18, s. 81].

N.N.Zabolotnevin yanaşmasına əsasən, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi dövlət orqanlarının ətraf mühitin qorunması, təbii resursların istifadəsi və bərpasının təşkili, ekologiya istifadəçilərinin hüquq və maraqlarının mühafizəsi, habelə təsərrüfat fəaliyyətinin ətraf mühitə və insana mənfi təsirlərini önləmək məqsədi ilə həyata keçirdikləri fəaliyyətdir [13, s. 313].

Təbiətdən istifadə və ətraf mühitin mühafizəsinin dövlət idarəetməsi dövlətin icra və inzibati orqanlarının dövlətin təbii sərvətlər üzərində mülkiyyət hüququna əsaslanaraq, təbii resurslardan rasional istifadə və ətraf mühitin qorunmasına yönələn fəaliyyətidir [17, s. 94].

Təbii ehtiyatların istifadəsi və ətraf mühitin qorunması sahəsində dövlət idarəetməsi dövlət orqanları tərəfindən təbii resurslardan effektiv istifadəni təmin etmək, ətraf mühitin xüsusiyyətlərini mühafizə etmək və bu sahədə qanunvericiliyin tələblərinə əməl etmək məqsədi ilə həyata keçirilən tədbirlər sistemidir [14, s. 207].

İ.E.Risinin fikrincə, təbii sərvətlərin istifadəsi və ətraf mühitin mühafizəsinin dövlət tərəfindən tənzimlənməsi dövlət orqanlarının müəyyənləşdirdiyi metodlar vasitəsi ilə təbii ehtiyatların rasional istifadəsi və təkrar istehsalının təşkili, ətraf mühitin qorunması, həmçinin təsərrüfat subyektləri tərəfindən bu sahədə qayda və standartlara əməl edilməsini əks etdirir [16, s. 37].

A.B.Dolxanov isə qeyd edir ki, təbiətdən istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi səlahiyyətli dövlət orqanlarının idarəetmə metod, forma və funksiyaları vasitəsi ilə realizə olunur. Bu orqanlar fəaliyyət növü və səlahiyyətlərinin dairəsindən asılı olaraq aşağıdakı funksiyaları həyata keçirir və ya həyata keçirilməsində iştirak edirlər:

1) təbiət obyektlərinin uçot və kadastrı;

2) təbiətdən istifadə və mühafizə üzrə planlaşdırma;

3) təbiət obyektlərinin bölgü və yenidən bölgüsü;

4) nəzarət;

5) təbiət obyektlərinin kəmiyyətinin artırılması;

6) təbiətdən istifadə sahəsində mübahisələrin həlli;

7) təbii resursların ərazi idarəetməsi [7, s. 49].

S.A.Balaşenkonun mövqeyinə görə, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin bir sıra spesifik əlamətlərini qeyd etmək olar:

1) bu, dövlətin icra hakimiyyət orqanlarının fəaliyyətidir;

2) bu, həm normativ hüquqi aktların yaradılmasına, həm də onların icrasına yönəldilən fəaliyyətdir;

3) bu, təbiətdən istifadə və ətraf mühitin mühafizəsini ehtiva edən xüsusi münasibətlərin idarə edilməsinə yönəldilən fəaliyyətdir;

4) bu, xüsusi icazə və hüquqlara malik olan dövlət orqanlarının həyata keçirdikləri fəaliyyətdir [11, s. 131].

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin prinsiplərinə aid edilir:

1) Qanunçuluq prinsipi – Təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sahəsindəki normativ hüquqi aktlara dönmədən riayət edilməlidir.

2) Ətraf mühitin mühafizəsinin prioritetliyi prinsipi – Təbiətdən istifadə zamanı təbii resurslar qorunmalı və ətraf mühitə zərərli təsirlərin qarşısı alınmalıdır.

3) Planlılıq prinsipi – Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi ilə bağlı tədbirlər müəyyən plan və proqramlarda təsbit edilməli və bu planların icrasına daim nəzarət olunmalıdır.

4) Dövlət tənzimlənməsinin yerli özünüidarəetmə ilə uzlaşdırılması prinsipi – vətəndaşların birbaşa və nümayəndəli demokratiya vasitəsilə tənzimlənmədə iştirakını və məsuliyyətini, eləcə də bələdiyyələrin fəaliyyətində təkbaşçılıq və kollegiallığın uzlaşdırılmasını nəzərdə tutur [8, s. 171-174].

Azərbaycan Respublikasının ekologiya qanunvericiliyinə nəzər saldıqda təbiətdən istifadə və ətraf mühitin mühafizəsinin təbiət obyektlərinin hüquqi rejimindən asılı olaraq müxtəlif prinsiplərinin olduğunu da müşahidə etmək olur. Məsələn, Meşə Məcəlləsinin 27-ci maddəsinə görə, meşələrin istifadəsinin, mühafizəsinin və bərpasının iqtisadiyyatın inkişafı, ətraf mühitin qorunması, meşələrdən ölkənin mənafeyi üçün səmərəli istifadə edilməsi kimi prinsipləri vardır [2]. Yaxud AR Su Məcəlləsinin 16-cı maddəsində sudan istifadə və mühafizə sahəsində dövlət tənzimlənməsinin bu prinsipləri təsbit olunub: keyfiyyətli su ilə təchizat, ətraf mühitin mühafizəsi və iqtisadiyyatın inkişafı, hövzə quruluşu ilə ərazi quruluşu prinsipinin uzlaşdırılması, su obyektlərinin üzərində idarəetmə funksiyası ilə su təsərrüfatı və su obyektlərindən istifadə funksiyalarının ayrılması [4].

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin davamlı fəaliyyət istiqamətlərinə, yəni funksiyalarına aiddir: 1) normativ hüquqi aktların hazırlanması; 2) təbiətdən istifadə və ətraf mühitin mühafizəsi üzrə idarəetmə orqanlarının sisteminin yaradılması və onların fəaliyyətinin əlaqələndirilməsi; 3) ekoloji monitorinq; 4) ekoloji ekspertiza; 5) ekoloji audit, 6) ekoloji lisenziyalaşdırma; 7) uçot; 8) ekoloji nəzarət; 9) ekoloji planlaşdırma, 10) mübahisələrin məhkəmə qaydasında həlli və s. [12, s. 150-151].

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi təşkilati-hüquqi, inzibati və iqtisadi metodların köməyi ilə realizə olunur.

Təbii ki, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinə verilən tərifləri genişləndirmək mümkündür, ancaq buna ehtiyac yoxdur. Belə ki, aparılan təhlillər onu göstərdi ki, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin anlayışına fərqli yanaşmalar mövcud olsa da, onları birləşdirən əsas məqamlar vardır. Yuxarıda qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi dedikdə, torpaq, yerin təki, meşə fondu, su, heyvanlar aləmi obyektləri və atmosferdən rasional qaydada istifadə, onların bərpası və ətraf mühitin qorunması, ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət tərəfindən müxtəlif fəaliyyət istiqamətləri üzrə həyata keçirilən idarəetmə başa düşülür. Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsində dövlət ayrı-ayrı təbii resurslardan səmərəli istifadə və ətraf mühitin qorunması ilə bağlı qanunvericilik aktları qəbul edir, bu aktlarda təbii sərvətlərdən istifadənin və ətraf mühitin qorunmasının qayda və şərtlərini, ekologiyadan istifadə edənlərin hüquq və vəzifələrini, təbiətdən səmərəsiz istifadə və ətraf mühitin mühafizəsinin pozulmasına görə hüquqi məsuliyyət tədbirlərini müəyyənləşdirir, habelə bu sahədə olan mübahisələri həll edir, fəaliyyətində tənzimlənmənin təşkilati-hüquqi, inzibati və iqtisadi metodlarından, o cümlədən

monitorinq, uçot, kadastr, nəzarət və digər bu kimi funksiyalardan istifadə edir.

Beləliklə, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinə bu formada tərif verilə bilər:

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi – dövlət tərəfindən təbii ehtiyatların ayrı-ayrı növlərindən səmərəli istifadə, onların bərpası, ətraf mühitin, ekoloji təhlükəsizliyin qorunması, hər kəsin sağlam ətraf mühitdə yaşamaq konstitusion hüququnun müdafiə edilməsi yolu ilə dayanıqlı inkişaf və ekoloji tarazlığın təmin edilməsinə yönələn təşkilati-hüquqi, iqtisadi və inzibati idarəetmə fəaliyyəti sistemidir.

Eyni zamanda, aparılan tədqiqatın nəticəsi əsasında aydın müəyyən etmək olur ki, müəlliflərin əksəriyyəti tərəfindən ekologiyadan istifadə anlayışı əvəzinə əsasən təbiətdən və ya təbii sərvətlərdən istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi anlayışından istifadə edilir. Lakin yuxarıda qeyd olunduğu kimi, ekologiyadan istifadə təbiətdən istifadədən daha geniş anlayış olub, onu da özündə ehtiva edir. Bu məqsədlə, ekologiya qanunvericiliyində təbii sərvətlərdən və ya təbiətdən istifadənin deyil, məhz elə ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi anlayışının təsbit edilməsi daha məqbul hesab edilə bilər.

Eləcə də "Ətraf mühitin mühafizəsi haqqında" AR Qanununda və ekologiya qanunvericiliyini təşkil edən digər normativ hüquqi aktlarda "ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi"nə vahid bir anlayış və ya tərif verilməyib. Qanunda yalnız bu anlayışın tərkib hissələri olan "təbiətdən istifadə" və "ətraf mühitin mühafizəsi"nə tərif verilmiş, sözügedən anlayış isə, ümumiyyətlə, təsbit olunmamışdır. Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinə vahid bir anlayış verilməməsi hüquqi qeyri-müəyyənliyə səbəb olur. Mövcud vəziyyəti nəzərə alaraq, qanunvericiliyin təkmilləşdirilməsi, terminoloji parçalanmanın qarşısının alınması və anlayışla bağlı vahid bir yanaşmanın formalaşdırılması üçün "ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi" anlayışının "Ətraf mühitin mühafizəsi haqqında" AR Qanununun 1-ci maddəsinə yuxarıda göstərildiyi kimi tərifi ilə birlikdə əlavə edilməsini təklif edirik.

Nəticə etibarı ilə, təklif edilən yanaşma hüquqi nəzəriyyədə və praktikada mövcud qüsurların aradan qaldırılmasına töhfə verə bilər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" 1999-cu il 8 iyun tarixli Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3852
2. Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Meşə Məcəlləsi: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46941
3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli 117 nömrəli "Heyvanlar aləmindən ümumi və xüsusi istifadə" Qaydaları: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/717
4. Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Su Məcəlləsi: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46940
5. Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Torpaq Məcəlləsi : [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46942
6. Azərbaycan Respublikasının 1998-ci il 13 fevral tarixli "Yerin təki haqqında" qanunu, https://eqanun.az/framework/4273
7. Dolxanov A.B. Təbiətdən istifadənin hüquqi əsasları: Dərslik. – Bakı: Bakı Universiteti, – 2008. – 496 s.
8. Əsədov A.Ə., Axundzadə L.T., Quliyeva Z.N. Ekologiya hüququ: Dərslik. – Bakı: Adiloğlu, – 2007. – 512 s.
9. Həsənov R.Ş. Ətraf mühitin iqtisadiyyatı: Dərslik. – Bakı: İqtisadiyyat Universiteti, – 2018. – 560 s.
10. Балашенко С.А. Государственное управление в области охраны окружающей среды. –Мн:Бгу, –2000. – 341 с.

11. Балашенко С.А., Макарова. Т. И., Лизгаро. В.Е., Лаевская. Е.В. Экологическое право: Учебное пособие. –Минск: БГУ, – 2013. – 240 с.

12. Бринчук М.М. Экологическое право: Учебник. Подготовлен для системы КонсультантПлюс.1 декабря 2008 г., 542 с. https://www.consultant.ru/edu/student/download_books/book/brinchuk_mm_ekologicheskoe_pravo/

13. Заболотнев Н. Н. "Государственное регулирование охраны окружающей среды" // История, культура, экономика Урала и Зауралья, – 2015, 13 ноября, – с.313-315.

14.Зохуев П.Л. Правовые основы государственного управления природопользованием и охраной окружающей среды //International Journal of Humanities and Natural Sciences.-2023/-№12-2. с.207-210.- DOI:10.24412/2500-1000-2023-12-1-207-210

15. Крассов О.И. Правовой режим земель государственного лесного фонда. – М.: Наука, – 1985. – 224 с.

16. Рисин И.Е. Совроменные тенденции и проблем в развитии экономики: Учебное пособие. – Минск, – 2008. – 220 с.

17. Саркисов О.Р., Любарский Е.Л. Экологическое право. – Казань: Центр инновационных технологий, – 2014. – 335 с.

18. Сторожев Н.В. Правовой режим мелиорированных земель / Под ред. А.А. Головко. Мн.:Наука и техника, – 1984, – 134 с.

19. Kaypak Ç.Ş. Çevre korunmasında sorumluluk hukukunun yeri //Sorumluk ve Tazminat Hukuku Sempozyumu Bildirileri. – 2009, – s. 309-346.

**Гусейнова Айтакин Махир гызы,**
магистрант II курса по специализации «Экологическое право»
кафедры трудового и экологического права юридического факультета
Бакинского государственного университета

## ПОНЯТИЕ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ЭКОЛОГОПОЛЬЗОВАНИЯ И ОХРАНЫ ОКРУЖАЮЩЕЙ СРЕДЫ

### РЕЗЮМЕ

В статье анализируются различные подходы к государственному регулированию природопользования и охраны окружающей среды. В результате проведенного анализа дается единое определение исследуемого понятия. В целях устранения недостатка в Законе Азербайджанской Республики «Об охране окружающей среды» предлагается установить определение, данное в данном законе.

**Huseynova Aytakin Mahir,**
2nd year master's student, "Environmental Law" specialty,
Department of Labor and Environmental Law,
Faculty of Law, Baku State University

## THE CONCEPT OF STATE REGULATION OF ENVIRONMENTAL USE AND ENVIRONMENTAL PROTECTION

### SUMMARY

This article explores different approaches to the concept of state regulation of ecological use and environmental protection. As a result, a unified definition is given to the concept under study based on the analyses conducted. It is proposed to establish the definition put forward in order to eliminate the deficiency in the Law of the Republic of Azerbaijan on "Environmental Protection" in this law.

**Redaksiyaya daxilolma tarixi: 28.12.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 10.01.2026**
**Çapa qəbul olunma tarixi: 17.01.2026**